# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# Q Ə R A R I

**Bakı şəhəri** **№ 256/2** **5 noyabr 2014-cü il**

**«2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı» Dövlət proqramına uyğun olaraq hazırlanmış «Audit şirkətlərinə dair xüsusi tənzimləyici tələblər haqqında Qaydalar»ın layihəsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 may tarixli 1504 saylı Sərəncamı ilə təsdiq edilmiş «2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı» Dövlət Proqramının 4.3 «Qiymətli kağızlar bazarında audit işinin təkmilləşdirilməsi, audit şirkətlərinə dair xüsusi tənzimləyici tələblərin müəyyən edilməsi» bəndinə, «Azərbaycan Respublikasında Auditor xidmətinin inkişaf konsepsiyası»na və Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2013-cü il 19 dekabr tarixli 248/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 1.3-cü bəndinə uyğun olaraq tərtib olunmuş «Qiymətli kağızlar bazarında kənar auditorlara dair tələblər haqqında qaydalar» barədə sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

**1.**«Qiymətli kağızlar bazarında kənar auditorlara dair tələblər haqqında Qaydalar»ın layihəsi bəyənilsin (əlavə olunur).

**2**. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, Şura iclasında verilən tövsiyələr nəzərə alınmaqla «Qiymətli kağızlar bazarında kənar auditorlara dair tələblər haqqında Qaydalar» üzərində işin bir həftə müddətində başa çatdırılmasını və sənədin razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə təqdim olunmasını təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**